# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlər



Bakı Mühəndislik Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Elmi-praktik konfransda Universitetin professor-müəllim heyəti və tələbələri ilə yanaşı, AMEA-nın Tarix İnstitutunun direktoru, millət vəkili, akademik Yaqub Mahmudov, həmin institutun tarixçi alimləri Cəbi Bəhramov, Asim Qafqarov, Ədalət Qasımov və İradə Əliyeva iştirak etmişlər. Konfransdan əvvəl universitetin foyesində AMEA-nın Tarix İnstitutunun araşdırmaları olan kitablardan ibarət sərginin açılışı olub. Azərbaycan Dövlət Himni ilə başlayan konfransda iştirakçılar Azərbaycan Xalq Cümhuriyyətinin tarixini və fəaliyyətini əks etdirən sənədli film izləyib. Sonra universitetin rektoru, professor Havar Məmmədov çıxış edərək AXC-nin 23 ay yaşamasına baxmayaraq, Şərqdə tarix yazdığını qeyd edib.

AMEA-nın Tarix İnstitutunun direktoru, millət vəkili, akademik Yaqub Mahmudov hər bir xalqın öz tarixini bilməsinin vacibliyindən, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın tarixindəki rolundan danışıb.

Konfransdan sonra universitetin özfəaliyyət dərnəklərinin ifasında bədii hissə keçirilib.

**M.MİRZƏ,**
**"Respublika".**

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan respublika elmi-praktik konfransı keçirilib.



Konfrans iştirakçıları öncə universitetdə nümayiş olunan Azərbaycan İstiqlal Muzeyinin eksponatlarından ibarət fotosərgi ilə tanış olublar.

Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlanıb. UNEC-in Elm və innovasiyalar üzrə prorektoru, professor Sakit Yaqubov bildirib ki, müsəlman Şərqində ilk parlamentli demokratik cümhuriyyətin yaradılmasının 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi tariximizə və müstəqilliyimizə böyük ehtiramın təcəssümüdür.

Millət vəkili, tarixçi alim Fəzail İbrahimli Xalq Cümhuriyyətinin yaradılmasını bütövlükdə Azərbaycan tarixinin şərəf və ləyaqət səhifəsi adlandırıb. Ümummilli lider Heydər Əliyevin indiki müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan etdiyini vurğulayan F.İbrahimli 2018-ci ilin Cümhuriyyət ili elan olunmasını Azərbaycanın müstəqillik tarixinə göstərilən diqqətin nümunəsi adlandırıb.



UNEC-in Humanitar fənlər kafedrasının professoru Nizami Süleymanov Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsindən danışıb.

"Azərbaycan Xalq Cümhuriyyəti - milli iqtisadiyyatın formalaşması təşəbbüsləri" mövzusunda çıxış edən UNEC-in rektorunun müşaviri, dosent Elşən Bağırzadə Cümhuriyyət dövründə aparılan iqtisadi islahatlardan söz açıb, qısa zaman kəsiyində milli iqtisadiyyatın formalaşdırılması istiqamətində çox böyük uğurlara imza atıldığını diqqətə çatdırıb.

Çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin tariximizin qürur dolu səhifəsi olduğunu və onun varisi olan bugünkü müstəqil Azərbaycanın daha da qüdrətlənməsi üçün hər bir vətəndaşın çalışmasının vacibliyini bildiriblər.

**Ülvi QARAYEV,**
**"Respublika".**

Azərbaycan Xalq Cümhuriyyətinin Hökumətinin üç ay fəaliyyət göstərdiyi, indiki Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) yerləşdiyi binada rəsmi qonaqların, professor-müəllim heyətinin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir" mövzusunda elmi konfrans keçirilmişdir.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov respublika konfransının məhz ADAU-da keçirilməsinin əhəmiyyətindən ətraflı danışdı.

AMEA-nın Z.Bunyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Tohidi Azərbaycan Xalq Cümhuriyyəti və onun Gəncə dövründə qəbul edilən mühüm qərarlar, həyata keçirilən tədbirlər barədə əhatəli çıxış etdi.

ADAU-nun ictimai elmlər və multikulturalizm kafedrasının müdiri, professor Azad Bayramov "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə milli dövlət quruculuğu", Naxçıvan Dövlət Universitetinin əməkdaşı Bağır Babayev "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan demokratik fikrində azadlıq, millətin və vətənin taleyi ideyaları", Gəncə Dövlət Universitetinin professoru Həsənbala Sadıqov "15 sentyabr 1918-ci il Bakının azad edilməsi prosesi: ermənilərin soyqırım mifləri və reallıqlar" mövzularında məruzələr etdilər.

Fətəli xan Xoyski nəslinin nümayəndəsi Azad xan Xoyski onun haqqında xoş xatirələrdən söhbət açdı.

Türkiyənin Gəncədəki baş konsulu Orhan İşıq bir sıra tarixi məqamlara aydınlıq gətirirərək iştirakçılarda xoş təəssürat yaratdı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Ölkəmiz Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan, Şərqdə - bütün müsəlman dünyasında ilk parlament tipli demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini böyük təntənə ilə qeyd edir. Azərbaycan Xalq Cümhuriyyəti qədim dövlətçilik ənənələrimizi yaşadaraq, müasir dövrə xas olan dövlət atributlarını yaratmışdır.



1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Şərqdə ilk demokratik respublikanın təşəkkül tapmasında Fətəli xan Xoyskinin, Məmmədəmin Rəsulzadənin, Səməd bəy Mehmandarovun, Əlimərdan bəy Topçubaşovun, Əliağa Şıxlinskinin və digər görkəmli siyasi xadimlərin böyük xidmətləri olmuşdur. Bu vətənpərvər ziyalıların, peşəkar hərbçilərin xatirəsi həmişə xalqımız tərəfindən minnətdarlıq hissi ilə anılır. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının tarixindəki rolunu çox yüksək qiymətləndirərək demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana gəlmişdir".

Bu fikirlər YAP Xaçmaz Rayon Təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev İdeoloji Mərkəzində keçirilən elmi-nəzəri konfransda söylənilmişdir. Konfransı giriş sözü ilə YAP rayon təşkilatının sədr müavini Sevinc Sədullayeva, İdeoloji mərkəzin direktoru Cavad Mehmanov "Azərbaycan Xalq Cümhuriyyəti müsəlman şərqində ilk demokratik respublikadır", YAP rayon təşkilatı Gənclər Birliyinin üzvü Amil Rəhimov "Müstəqil Azərbaycan Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir", şəhər 9 nömrəli tam orta məktəbin tarix müəllimi Kazım Balakişiyev "Şərqdə ilk parlamentli respublika" mövzusunda məruzələrlə çıxış etmişlər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

Veysəloğlu Şirkətlər Qrupunun baş sponsorluğu, Xəzər Universitetinin akademik tərəfdaşlığı, Kainat Tədris Mərkəzi və ATGTİ-nin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunan III Tələbələrarası Məntiq Olimpiadasının qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Park İnn otelində baş tutan tədbirdə Veysəloğlu Qrupun Biznesə Dəstək üzrə baş direktoru İlqar Nuri, Xəzər Universitetinin professoru Fuad Rəsulov, ATGTİ-nin Beynəlxalq Əlaqələr Şöbəsinin rəhbəri Ramin Həbibzadə və Kainat Tədris mərkəzinin direktoru İlqar Ağakişiyev və olimpiadanın iştirakçısı olmuş tələbələr iştirak ediblər.

Bilik yarışının qaliblərini təbrik edən Veysəloğlu Qrupun Biznesə Dəstək üzrə baş direktoru İlqar Nuri məntiq olimpiadasının əhəmiyyətindən söhbət açıb, iştirakçılara həm təhsilində, həm də gələcək işlərində müvəffəqiyyətlər arzu edib.



Tədbirin sonunda III Tələbələrarası Məntiq Olimpiadasının qalibləri mükafatlandırılıb. Belə ki, ilk onluğu tutan tələbələrə sertifikat, Teas Press Nəşriyyat evindən bestseller kitablar, planşet, noutbuk, 1-ci yerin sahibinə isə Veysəloğlu Qrup tərəfindən iPhone X mobil telefonu təqdim olunub və Xəzər Universitetindən isə 2 illik ödənişsiz MBA təhsili almaq şansı qazanıb.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**